## “YAŞAT” FONDU QAZİLƏRİMİZƏ DƏSTƏYİNİ DAVAM ETDİRİR:

# Onlar bu dəfə daha 5 “RGO” cihazı ilə təmin ediliblər



***“YAŞAT” Fondu tərəfindən Vətən müharibəsində ağır yaralanan qazilərin səhhətlərinin bərpası ilə bağlı tədbirlər davam etdirilir. Ciddi fiziki xəsarət alan qazilərin fiziki bərpa prosesini daha da sürətləndirmək üçün “YAŞAT” Fondu tərəfindən xaricdən sifariş edilən daha 5 “RGO” ortopedik cihazı ölkəmizə gətirilib və artıq istifadə olunur. Bu cihaz vasitəsilə hərəkət məhdudiyyətli şəxslərə addım atmaq şansı yaradılır.***

“YAŞAT” Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov bildirib ki, yaralılarımızın daha sürətli və keyfiyyətli reabilitasiya olunması üçün “RGO” ortopedik cihazlarına ehtiyac duyulub. Onlardan biri daha öncə sifariş olunaraq ölkəyə gətirilmişdi. Hazırda daha 5 cihaz gətirilərək qazilərimizin istifadəsinə verilib.

E.Hüseynov qeyd edib ki, “YAŞAT” Fondu həkimlərlə daim əlaqədədir: “Həkimlər tərəfindən qazilərimizin hansı cihazlara ehtiyacı varsa, bizə məlumat verilir və tərəfimizdən o cihazlar sifariş verilərək gətirilir”.

E.Hüseynov vurğulayıb ki, Fond qazilərin özəl tibb müəssisələrində müalicələrinin də maliyyələşdirilməsini təmin edir: “Yanaşma belədir ki, qazimizin müraciət etmək istədiyi özəl tibb müəssisəsi, özünün etibar etdiyi mütəxəssis varsa, biz onlar arasında əlaqənin davam etməsinə imkan yaradırıq. Biz həmin tibb müəssisəsi ilə müqavilə bağlayırıq və müalicəsini təmin edirik. Xüsusilə də aşağı ətrafların əməliyyatları buraya daxildir”.

Həkim-reabilitoloq, mütəxəssis Gülnarə Nuruzadənin sözlərinə görə, 3 aydır ki, Səhiyyə Nazirliyinin Sanator-Kurort Reabilitasiya Mərkəzində Müdafiə Nazirliyinin layihəsi üzrə çalışır və bu müddətdə cürbəcür diaqnozlarla gələn 300-dən çox xəstə olub: “İlk 1-ci ay bizim üçün çox çətin oldu. Həm dərman, həm də cihazlar... Bizim mütəxəssis kimi ehtiyacımız olan bütün ortopedik cihazlar “YAŞAT” Fondu tərəfindən təchiz olunub. Onlar bu aydan etibarən bizə kömək etməyə başlayıblar. Bunun üçün “YAŞAT” Fonduna təşəkkürümü bildirirəm. İlk 2 ayda bir “Giger-MD” tibbi reabilitasiya avadanlığını özümüz əldə etmişdik. İsveçrədə təhsil almışam, istəyirdim ki, təcili gəlsin. 10 ildir ki, bu cihazla başqa hospitalda işləyirəm. Bilirdim ki, bu cihaz qazilərə çox kömək edəcək. Biz çalışırıq ki, tez bir zamanda sürətli və effektiv müalicəni təmin edək. Qazilərimiz çox xoşbəxtdirlər ki, “YAŞAT” Fondu bütün bunları təşkil edir.”

G.Nuruzadə, həmçinin bir ay əvvəl sosial şəbəkədə 6 qaziyə “RGO” cihazının gərək olduğunu yazdığını, hazırda 8 belə avadanlıqla təmin edildiklərini qeyd edib: “Artıq qazilərimizdən biri onun vasitəsilə 1,5 saat qaçış qurğusu üzərində hərəkətdə ola bilir və gündəlik əldə etdiyi irəliləyiş barədə məlumat verir. Bu cihaz belindən xəsarət alan şəxslərdə əməliyyatdan sonra yerdə qalan fəsadların aradan qaldırılması üçün istifadə edilir. Bu cihaz hər bir xəstənin göstəricisi üzrə yığılır”.

G.Nuruzadə deyib ki, bu cihazın sayının artırılmasına, eləcə də digər tibbi avadanlıqlara tələbat var.

“Medicom” Ortez-Protez Mərkəzinin rəhbəri Anar Rüstəmov bildirib ki, bu cihaz xəstəyə hər addımında növbəti addımına təkan verən avadanlıqdır: “Cihazın bu tipli xəstələrin reabilitasiyasında çox ciddi dəstəyi var. Bu aparatlar hər bir xəstənin fərdi göstəricilərinə görə hazırlanıb. Yəni xəstənin aktivlik dərəcəsi, iflicin əhatə etdiyi nahiyələrə görə fərdi olaraq qurulub. Burada istifadə müddəti də xəstəyə görə fərdidir. Xəstə ondan altı ay da, bir il də faydalana bilər. Bu, reabilitasiyanın gedişatından asılıdır.

Mütəxəssislərimiz xəstənin sağlamlıq göstəricilərini nəzərə alaraq cihazı fərdi şəkildə hazırlayırlar. Bu aparat dünyada 30 ildən artıqdır, ölkəmizdə isə “Medicom” Ortez-Protez Mərkəzi tərəfindən 16 ildir ki, tətbiq edilir. Reabilitasiyanın gedişində bu aparatın dəstəyi 30-40 faizdir”.

“RGO” ortopedik cihazından istifadə edən qazi Sabir Əliyev cihaz barədə “İki sahil”ə danışıb: “Vətən müharibəsində Füzuli rayonunun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə snayperlə onurğamdan yaralanmışam. Bu cihaz yeriməyimə çox kömək edir. İstifadə etdikdən sonra gördüm ki, bu avadanlıq vasitəsilə ayaq üstə dura bilirəm.”

**✍ Ceyhun Piriyev,**

**✍ Taleh Bağırov,**

***“İki sahil”***